**Huseynova S.U.**[♦]

**DOI: 10.25108/2304-1730-1749.iolr.2022.66.51-62**
**UDC: 34: 343.2/.7**

## Environmental crimes in national criminal law: development history and current condition

**Abstract:** In the study is analyzed the norms of criminal law that determine responsibility for environmental crimes, and makes an excursion into the history of the formation of the legislative system. Thus, the 4th chapter "Economic crimes" of the Criminal Code of Azerbaijan of 1922, the 5th chapter "Economic crimes" of the Criminal Code of Azerbaijan of 1927, chapter 6 "Economic crimes" of the Criminal Code of 1960, as well as chapter 6 of the Criminal Code of the Azerbaijan SSR "Crimes in the economic sphere" and, finally, chapter 28 "Environmental crimes" of the Criminal Code of the Republic of Azerbaijan in force since September 1, 2000.

In the course of the study, it was found that, compared with the previous criminal legislation, the Criminal Code of the Republic of Azerbaijan, adopted on September 1, 2000, defines the elements of criminal manifestations related to environmental crimes. However, after the adoption of the new Criminal Code, the provisions on liability for acts related to environmental crimes were either further improved or underwent a number of additions and changes. All this indicates that criminal law has come a long and difficult way in the fight against such dangerous acts as environmental crimes. Taking into account the historical experience, the criminal legislation of the Republic of Azerbaijan has established more advanced norms defining liability for environmental crimes.

In connection with the entry into force of the new Criminal Code, the latest development of the national criminal legislation of Azerbaijan has acquired modern and more effective criminal law tools and mechanisms in the fight against environmental crimes.

**Keywords:** environmental crimes; legislation system; environmental protection; legislation; violation of the security regime; development of criminal legislation; national criminal law; environmental safety rules.

## References

1. Constitution of the Republic of Azerbaijan/ Baku, Huquq Yayin Evi Publ., 2019, 116 p. (in Azerbaijani).
2. Criminal Code of the Republic of Azerbaijan. Baku, Digesta Publ., 2018, 472 p. (in Azerbaijani).
3. Criminal Code of the Republic of Azerbaijan. Baku, Huquq Yayin Evi Publ., 2020, 772 p. (in Azerbaijani).
4. Commentary to the Criminal Code of the Republic of Azerbaijan. 2 Part. Ed. by Doctor of Law, Prof. F.Y. Samandarov. Baku, 2018, 800 p. (in Azerbaijani).
5. Collection of the Criminal Laws (1920-2000). Baku, Huquq Yayin Evi Publ., 2014, 1184 p. (in Azerbaijani).

[♦] **Huseynova Sevinj Usub -** PhD in Law, Senior Scientific researcher of the Department for Criminal law and criminal process of the Institute of Law and Human Rights of the ANAS (Azerbaijan). E-mail: sevhuseyn@yahoo.com

6. Gurbanov R.A. Some issues in the fight against crime Baku, Nurlan, 2006, 192 p. (in Azerbaijani).

7. Huseynov R.I. Hüseynov R.İ. Environmental crimes: legal, social and philosophical bases of their elimination. Baku, Adiloglu, 2001, 119 p. (in Azerbaijani).

8. Tangiyev B.B. *Nauchny ekologo-kriminologicheskykompleks po obespecheniyu ekologicheskoy bezopasnosti i protovodeystviyu ekoprestupnosti* [Scientific Ecological and Criminological Complex for Ensuring Environmental Safety and Combating Environmental Crime]. S. Petersburg, Yuridichesky Center Press, 2010, 630 p.

9. *Ekologicheskaya prestupnist' v Evrope*. Otv. red. O.L. Dubovik [Ecological crime in Europe. Ed. by O.L. Gorodets]. Moscow, Gorodets, 2010, 352 p.

10. *Ekologicheskaya prestupnost' i.* [Ecological crime and]. Available at: https://www. monographies.ru (accessed: 24.02.2022).

11. 678-IQ – On Environmental protection. Available at: http://www.e-qanun.az (accessed: 03.03.2022) (in Azerbaijani).

12. "On Environmental protection" Law of the Repbulic of Azerbaijan. Available at: http://www.e-qanun.az › fram... (accessed: 03.03.2022) (in Azerbaijani).

13. 1175-VQ - On environmental impact assessment Law of the Republic of Azerbaijan. Available at: http://www.e-qanun.az (accessed: 03.03.2022) (in Azerbaijani).

14. Concerning Environmental protection the Republic of Azerbaijan .... Available at: http://www.e-qanun.az › fram... (accessed: 03.03.2022) (in Azerbaijani).

**Hüseynova S.U.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2022.66.51-62**
**UOT 34: 343.2/.7**

## Milli cinayət qanunvericiliyində ekoloji cinayətlər: inkişaf tarixi və müasir vəziyyəti

**Xülasə**: Tədqiqat işində ekoloji cinayətlərə görə məsuliyyət müəyyən edən cinayət hüquq normaları təhlil edilmiş, qanunvericilik sisteminin formalaşması tarixinə ekskurs edilmişdir. Belə ki, 1922-ci il Azərbaycan İctimai Şura Cümhuriyyətinin Cəza Məcəlləsinin "Təsərrüfat cinayətləri" adlı 4-cü fəslində, 1927-ci il Azərbaycan İctimai Şura Cümhuriyyətinin Cəza Məcəlləsinin "Təsərrüfat cinayətləri" adlı 5-ci fəslində, 1960-cı il Azərbaycan SSR Cinayət Məcəlləsinin "Təsərrüfat cinayətləri" adlı 6-cı fəslində və nəhayət 1 sentyabr 2000-ci il tarixdən qüvvədə olan Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin "Ekoloji cinayətlər" adlı 28-ci fəslində təsbit olunan cinayət hüquq normaları geniş araşdırılmışdır.

Araşdırma zamanı məlum olmuşdur ki, əvvəlki cinayət qanunvericilikləri ilə müqayisədə Azərbaycan Respublikasının 1 sentyabr 2000-ci il tarixdə qəbul edilmiş Cinayət Məcəlləsində ekoloji cinayətlərlə bağlı olan kriminal təzahürlərə görə mükəmməl tərkiblər müəyyənləşdirilmişdir. Bununla belə Cinayət Məcəlləsi qüvvəyə mindikdən sonra ekoloji cinayətlərlə bağlı olan əməllərə

♦ **Hüseynova Sevinc Usub qızı –** AMEA Hüquq və İnsan Haqları İnstitutu Cinayət hüququ və cinayət prosesi şöbəsinin böyük elmi işçisi, hüquq üzrə fəlsəfə doktoru (Azərbaycan). E-mail: sevhuseyn@yahoo.com

görə məsuliyyət nəzərdə tutan tərkiblər daha da təkmilləşdirilmiş və ya Cinayət Məcəlləsində nəzərdə tutulan tərkiblərə bir sıra əlavələr və dəyişikliklər edilmişdir. Bütün bunlar onu göstərir ki, ekoloji cinayət kimi təhlükəli bir kriminl təzahürlə mübarizədə cinayət qanunvericiliyi mürəkkəb və çətin bir yol keçmişdir. Tarixi təcrübəni nəzərə alaraq Azərbaycan Respublikasının cinayət qanunvericiliyi ekoloji cinayətlərə görə məsuliyyət müəyyən edən mükəmməl normalar müəyyən etmişdir.

Yeni Cinayət Məcəlləsinin qüvvəyə minməsi ilə əlaqədar Azərbaycanın milli cinayət qanunvericiliyinin ən yeni inkişaf tarixi ekoloji cinayətlərə qarşı mübarizədə müasir və təsirli cinayət hüquq vasitələri və mexanizmləri əldə etmişdir.

**Açar sözlər:** ekoloji cinayətlər; qanunvericilik sistemi; ətraf mühitin mühafizəsi; qanunvericilik aktları; mühafizə rejimini pozma; cinayət qanunvericiliyinin inkişafı; milli cinayət qanunvericiliyi; ekoloji təhlükəsizlik qaydaları.

Ekoloji mühitin strukturunun keyfiyyətcə dəyişilməsi hazırda qüvvədə olan Azərbaycan Respublikasının Cinayət Məcəlləsində ekoloji cinayətlərə aid normalarda da öz ifadəsini tapmışdır. Məlumdur ki, ekoloji cinayətlər dövlətin ərazisində ekoloji hüquq qaydalarına, cəmiyyətin ekoloji təhlükəsizliyinə, ətraf mühitə və insana vurulan zərərlə əlaqədar şərh edilir. "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının 8 iyun 1999-cu il tarixli 678-IQ nömrəli Qanunun 23-cü fəsli "Ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət, mübahisələrin həlli" adlanır. "Ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət" adlanan 78-ci maddədə deyilir: "Ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin pozulmasında təqsirkar olan hüquqi və fiziki şəxslər, o cümlədən vəzifəli şəxslər Azərbaycan Respublikasının Mülki, İnzibati Xətalar və Cinayət məcəllələrində nəzərdə tutulmuş hallarda məsuliyyət daşıyırlar" [11].

79-cu maddə "Ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin pozulması nəticəsində vurulan zərərin ödənilməsi" adlanır. 7-ci bənddə maddənin mahiyyəti hərtərəfli açılır.

1. Ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin pozulması nəticəsində ətraf mühitə, insanların sağlamlığına, təşkilatların, vətəndaşların və dövlətin mülkiyyətinə (əmlakına) zərər vurmuş hüququ və fiziki şəxslər qüvvədə olan qanunvericiliyə uyğun vurulmuş zərər ödəməlidirlər.

2. Ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin pozulması nəticəsində vurulan zərərin ödənilməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş məzənnələr və metodlarla hesablanma qaydalarına uyğun könüllü və ya məhkəmənin qərarı əsasında, bu hallar olmadıqda isə itkilər nəzərə alınmaqla, ətraf mühitin pozulmuş vəziyyətinin bərpasına lazım olan faktiki xərclər həcmində həyata keçirilir.

3. Zərərin ödənilməsinə görə alınan məbləğlər ətraf mühitin mühafizəsi fondlarına, qanunvericiliklə müəyyən edilmiş hallarda isə zərər çəkmiş hüquqi və ya fiziki şəxsin hesabına köçürülür.

4. Ətraf mühitə təhlükəli təsir edən fəaliyyətlə məşğul olan hüquqi və fiziki şəxslər, onların təqsiri müəyyən edildikdə ətraf mühitə vurulmuş zərəri ödəməlidirlər.

5. Ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin pozulması nəticəsində vətəndaşların həyatına və əmlakına vurulmuş zərər, zərər çəkənin əmək qabiliyyətinin itirilməsi dərəcəsi, onun müalicəsi və sağlamlığının bərpası üçün tələb olunan xərclər və itkilər nəzərə alınmaqla tam həcmdə ödənilməlidir.

6. Vətəndaşların sağlamlığına və əmlakına vurulmuş zərərin həcminin müəyyən edilməsi qüvvədə olan qanunvericiliyə uyğun, zərərin ödənilməsi isə məhkəmənin qərarı əsasında həyata keçirilir.

7. Ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin pozulması nəticəsində vurulmuş zərər Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada ödənilir [11].

Göründüyü kimi, Azərbaycan Respublikasının "Ətraf mühitin mühafizəsi haqqında" Qanunun vurulmuş ziyanın mülki qaydada nizama salınmasını tənzimləyir. Cəza növüisə zərərin ödənilməsidir. Bu isə şübhəsiz, kifayət deyildir. Keçmiş SSRİ məkanında qəbul edilmiş qanun və qərarlarda ekoloji cinayət anlayışına mühüm yer verilmişdir. Ekoloji cinayətin izləri ətraf mühitə vurulan zərər vasitəsilə üzə çıxarılır [7, s. 22].

Cəmiyyətdə iqtisadi maraqlarla ekoloji maraqların üst-üstə düşməsi onların hər ikisinin qorunmasına tələb edir. Bu isə iqtisadi məsuliyyətlə yanaşı ekoloji məsuliyyət məsələsini də irəli sürür. Kəskin ekoloji məsuliyyətsizlik isə ekoloji cinayətə bərabər tutulur. Təsadüfi deyildir ki, müstəqil Azərbaycan Dövlətinin Konstitusiyasında həmin məsələ xüsusi vurğu ilə bir sıra maddələrdə (maddə 39 və maddə 78) öz əksini tapmışdır.

"Sağlam ətraf mühitdə yaşamaq hüququ" adlanan 39-cu maddədə deyilir: I.Hər kəsin sağlam ətraf mühitdə yaşamaq hüququ vardır. II. Hər kəsin ətraf mühitin əsl vəziyyəti haqqında məlumat toplamaq və ekoloji hüquqpozma ilə əlaqədar onun sağlamlığına və əmlakına vurulmuş zərərin əvəzini almaq hüququ vardır. III. Heç kəs ətraf mühitə, təbii ehtiyatlara qanunla müəyyən edilmiş hədlərdən artıq təhlükə törədə və ya zərər vura bilməz. IV. Dövlət ekoloji tarazlığın saxlanılmasına, yabanı bitkilərin və vəhşi heyvanların qanunla müəyyən edilmiş növlərinin qorunmasına təminat verir.

"Ətraf mühitin qorunması" adlanan 78-ci maddədə isə deyilir: Ətraf mühitin qorunması hər bir şəxsin borcudur [1].

Ekoloji cinayət sosial münasibətlərin uyğunsuzluğunun təzahürü olan mürəkkəb sosial-hüquqi hadisə olduğundan ən çox yayılmış təhlükəli cinayətlər sırasındadır.

Təbii mühitin cinayət-hüquqi mühafizəsi problemini həll edərkən cinayət qanunvericiliyinin inkişafını, onun formalaşması şərtlərini, tendensiyalarını və perspektivlərini nəzərə almaq lazımdır. Tarixi təhlil metodundan istifadə cinayət qanununun daha da təkmilləşdirilməsi yollarının daha səmərəli proqnozlaşdırılmasına kömək edir [10].

Azərbaycan Respublikasında ekoloji cinayətlər və onunla bağlı kriminal əməllərə görə məsuliyyət müəyyən edən qanunvericilik sisteminin formalaşması sovet hakimiyyətinin qurulduğu ilk illərə təsadüf edir.

Qeyd edək ki, Azərbaycanın cinayət qanunvericiliyi RSFSR-in cinayət hüququnun bilavasitə təsiri altında yaranıb formalaşmışdı. Çox vaxt RSFSR-in cinayət qanunvericiliyinin normaları Azərbaycanın müvafiq dekretlərində tekstual şəkildə təkrarlanmış və ya yerli spesifik xüsusiyyətlər nəzərə alınmaqla analoji dekretlərin verilməsi üçün əsas olmuşdur. Digər fərqləndirici cəhət ondadır ki, ilk vaxtlarda cinayət hüquq normalarından ibarət qanunvericilik aktlarını qəbul etmək hüququ müxtəlif dövlət orqanlarına verilmişdir. Məsələn, cinayət hüquq normaları müxtəlif adlı aktlarda (məsələn, dekretlərdə, qərarlarda, təlimatlarda) öz əksini tapmışdır. Bu qəbildən olan aktlar, adətən, təsərrüfat və inzibati-siyasi quruculuq məsələlərinə aid olmuşdur.

Azərbaycan dövlətinin həmin dövrdə olan inkişaf mərhələsində ətraf mühitin mühafizəsinə dair hüququn təsirinin hər hansı mexanizmlərinin mövcud olmamasına baxmayaraq, cinayət qanunvericiliyinin kodifikasiya edilməsi zərurəti yaranmışdır. Belə bir cəhd 1920-ci ildə

“Azərbaycan SSR-in cinayət hüququnun əsas müddəaları” adlı sənəddə göstərilmişdir. Bu sənəddə ilk dəfə olaraq cinayət hüququnun ümumi hissəsinin ən mühüm normaları ifadə edilmiş, eləcə də onun müvafiq institutlarını ümumiləşdirməyə cəhd göstərilmiş və xüsusən, ilk dəfə olaraq cinayət anlayışının ümumi maddi tərifi verilmişdir [6, s. 7-8].

1922-ci il Azərbaycan İctimai Şura Cümhuriyyətinin Cəza Məcəlləsinin “Təsərrüfat cinayətləri” adlı 4-cüfəslində aşağıda qeyd olunan maddələr təsbit olunmuşdur: 126; 126a; 126b; 127; 128; 128a; 129; 130; 131; 132; 133; 134; 135; 135a; 136; 137; 137a 138; 139; 139a; 140; 140a; 140b; 140v, 140q; 141; 141a.

Bu Fəsildə 7 iyun 1924-cü il, 17 yanvar 1925-ci il, 20 fevral 1926-cı il, 6 mart 1926-cı il, 17 iyul 1926-cı il, 12 fevral 1927-ci il, 28 sentyabr 1927-ci il tarixli Qərarlarla və 17 noyabr 1923-cü il Dekretlə bir çox maddələrə əlavə və dəyişikliklər edilmiş, bəzi maddələr yeni redaksiyada verilmişdir [5, s. 90-96].

1924-cü ildə “SSR İttifaqının və müttəfiq Respublikaların cinayət qanunvericiliyinin əsasları” adlı sənədin qəbul edilməsi Azərbaycanın cinayət qanunvericiliyinin inkişafına mühüm təsir göstərmişdir[6, s.8].

RSFSR-in 1926-cı il tarixli Cinayət Məcəlləsi ümumittifaq cinayət qanunvericiliyi əsasında hazırlanmış ilk Cinayət Məcəlləsi və sovet cinayət qanunvericiliyinin inkişafında yeni mühüm mərhələ olmuşdur. Məlum olduğu kimi, bu Məcəllənin müddəalarının çoxu sonradan 1927-1935-ci illərdə nəşr edilmiş digər müttəfiq respublikaların, o cümlədən Azərbaycan SSR-in Cinayət Məcəlləsində də nəzərə alınaraq öz əksini tapmışdır.

Azərbaycan SSR-in Cinayət Məcəlləsi Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin və Xalq Komissarları Sovetinin 3 dekabr 1927-ci il tarixli qərarı ilə təsdiq edilmiş və 15 yanvar 1928-cii il tarixdə qüvvəyə minmişdir. İstər bu məcəllələrin, istərsə də digər müttəfiq respublikaların cinayət məcəllələrinin qəbul edilməsi sovet cinayət qanunvericiliyinin inkişafında növbəti mərhələ kimi qiymətləndirilir və nisbətən uzun müddət – 1 yanvar 1961-ci ilə qədər qüvvədə olmuşdur. Həmin tarixdə yeni məcəllələr qüvvəyə minmişdir[6, s. 8-9].

1927-ci il Azərbaycan İctimai Şura Cümhuriyyətinin Cəza Məcəlləsinin Xüsusi hissəsinin 5-ci fəslində aşağıda qeyd edilən maddələr yer alır: Maddə 163; 163-1; 163-2; 163-3; 163-4; 164; 165; 166; 167; 168; 168-1; 168-2; 168-3; 168-4; 169; 170.

Bu Məcəllədə sözü gedən fəsildə 1928-ci il 7 aprel, 1928-ci il 23 iyun, 1928-ci il 15 dekabr, 1929-cu il 24 avqust, 1930-cu il 3 fevral, 1930-cu il 23 fevral, 1931-ci il 2 aprel, 1933-cü il 10 avqust, 1934-cü il 15 mart, 1936-cı il 22 avqust, 1936-cı il 29 dekabr, 1937-ci il 2 avqust tarixli Qərarlarla bir çox maddələrə əlavə və dəyişikliklər edilmiş, bəzi maddələr yeni redaksiyada verilmişdir [5, s. 195-199].

Azərbaycan SSR-in Cinayət Məcəlləsinin hüquqi qüvvəyə minməsi ekoloji cinayətlərə dair Azərbaycanın cinayət qanunvericiliyinin inkişafı tarixində mühüm amil olmuşdur. Azərbaycan SSR-in 8 dekabr 1960-cı il tarixli Qanunu ilə təsdiq edilmiş və 1 mart 1961-ci il tarixdən qüvvəyə minmişdir.

Məcəllənin ilkin redaksiyasında ətraf mühitin mühafizəsinə dair konkret normaların olmamasına baxmayaraq, bir sıra maddələr (maddələr 151-166 – “Təsərrüfat cinayətləri”) geniş mənada şərh edildikdə onlar təbii resurslara dair qanunvericiliyin müxtəlif problemlərinə toxunurdu [6, s. 10].

Azərbaycan Respublikasının sonuncu Cinayət Məcəlləsi qəbul edilənə qədər müxtəlif illərdə Azərbaycan SSR-in əvvəlki Cinayət Məcəlləsinin “Təsərrüfat cinayətləri” adlanan 6-cı fəslində

ekoloji cinayətlərin tərkibinə aid tövsifedici əlamətlərin daxil edilməsi ilə müəyyən əlavələr və dəyişikliklər edilmişdir (məsələn, maddə 158-1. "Azərbaycan Respublikasının sahilyanı şelf haqqında qanunlarını pozma", maddə 159. "Qanunsuz olaraq balıq tutma və ya sudan başqa şeylər tutma peşəsi ilə məşğul olma" və xüsusən də 160-cı maddə "Sututarları və havanı çirkləndirmə"). Həmin əlavələr və dəyişikliklər ətraf mühitin mühafizəsi sahəsində cinayət qanunvericiliyinin inkişaf etməsini göstərmişdir [6, s. 11-12].

1960-cı il Azərbaycan SSR Cinayət Məcəlləsinin6-cıfəsli – "Təsərrüfat cinayətləri" aşağıda qeyd edilən maddələri əhatə edir: 151; 151-1; 152; 152-1; 153; 153-1; 153-2; 154; 154-1; 154-2; 154-3; 154-4; 155; 155-1; 156; 157; 157-1; 157-2; 157-3; 157-4; 158; 158-1; 159; 160; 160-1; 160-2; 161; 161-1; 162; 162-1; 162-2; 163; 164; 164-1; 165; 166.

Bu fəsildə1964-cü il 13 may, 1975-ci il 27 avqust, 1979-cu il 26 fevral,1982-ci il 22 dekabr, 1986-cı il 16 iyun, 1992-ci il 18 avqust, 1995-ci il 4 aprel, 1995-ci il 12 sentyabr tarixli Qərar və Fərmanlarla bir çox maddələrə əlavə və dəyişikliklər edilmiş və bəzi maddələr yeni redaksiyada verilmişdir [5, s. 714-736].

Milli cinayət qanunvericiliyinin inkişaf tarixi bunu da söyləməyə imkan verir ki, ətraf mühitin mühafizəsi sahəsində hüququn tətbiq edilməsi təbiəti mühafizə və qanunvericiliyin digər sahələri ilə müəyyən edilmiş xüsusi formada həyata keçirilən dövlət hakimiyyət fəaliyyətidir. Bu fəaliyyət dövlətin müvafiq səlahiyyətli orqanları və ictimai təşkilatlar tərəfindən həyata keçirilmiş müvafiq şəxslərin hərəkətlərinə nəzarətin həyata keçirilməsindən və təbiəti mühafizə qaydalarının tələblərinə əməl etmələrindən, eləcə də həmin qaydaları pozan subyektlər barəsində dövlət tərəfindən məcburi tədbirlərin tətbiq edilməsindən və icrasının təmin olunmasından ibarət olmuşdur.

Təbiəti mühafizə fəaliyyətində hüququn tətbiq edilməsinin əsasını qüvvədə olan cinayət qanunvericiliyinin normaları təşkil etmişdir. Qanunun tələblərinə müvafiq olaraq təbiətin mühafizəsi sahəsində hüququn tətbiqi məhkəmə, prokurorluq, daxili işlər orqanları, təbiəti mühafizə müfəttişlikləri, dövlət nəzarəti və idarəetmə orqanları tərəfindən həyata keçirilmişdir [6, s. 21-22].

Yeni cinayət məcəllələrinin strukturu əhəmiyyətli modifikasiyaya məruz qaldı və hazırda onlar təkcə fəsillərə deyil, həm də bir neçə fəsli birləşdirən bölmələrə ayrılır. Buna səbəb odur ki, müasir dünyada cinayət hüquqi müdafiə məsələlərinin əksəriyyəti xeyli müərkkəbləşmiş və daha müfəssəl işlənib hazırlanmışdır. Belə ki, Azərbaycan Respublikasının 30 dekabr 1999-cu il tarixli qanunu ilə təsdiq edilmiş və 1 sentyabr 2000-ci il tarixdən qüvvəyə minmiş Azərbaycan Respublikasının Cinayət Məcəlləsi 35 fəsli birləşdirən 12 bölmədən və 353 maddədən ibarətdir.

Yeni Cinayət Məcəlləsinin üstün cəhətlərindən biri də ondan ibarətdir ki, burada əvvəlki sovet ənənələrindən bir növ imtina edilmiş və cinayət qanunu ilə mühafizə edilən yeni ümumbəşəri dəyərlərə keçid baş vermişdir.

Yeni Cinayət Məcəlləsinə əvvəllər Azərbaycan qanunvericiliyinə məlum olmayan, lakin ekoloji təhlükəsizlik qaydalarına tez-tez rast gəlinən pozulma hallarını əks etdirən, əhalinin sağlamlığına, ətraf mühitin bütün komponentlərinə ciddi ziyan vuran və iqtisadi xarakterli böyük itkilərə səbəb olan bir sıra yeni cinayətlərin tərkibləri daxil edilmişdir.

Başqa sözlə desək, yeni Cinayət Məcəlləsinin qüvvəyə minməsi ilə əlaqədar Azərbaycanın milli cinayət qanunvericiliyinin ən yeni inkişaf tarixi ekoloji cinayətlərə qarşı mübarizədə müasir və təsirli cinayət hüquq vasitələri və mexanizmləri əldə etmişdir [6, s. 24].

İşlərin yerinə yetirilməsi zamanı ətraf mühitin mühafizəsi (qorunması) qaydalarını pozma (maddə 247), ekoloji cəhətdən təhlükəli maddələrin və tullantıların dövriyyəsi qaydalarını pozma (maddə 248), suyu (su mənbələrini) çirkləndirmə (maddə 250), dəniz mühitini çirkləndirmə (maddə

252), sahilyanı şelf haqqında Azərbaycan Respublikasının qanunvericiliyini pozma və bəzi başqa yeni cinayət tərkibləri bu fikri təsdiq edir [6, s. 24-25].

Ümumiyyətlə, 1 sentyabr 2000-ci il tarixdən qüvvədə olan Azərbaycan Respublikasının Cinayət Məcəlləsində Ekoloji cinayətlər ayrıca 28-ci fəsildə verilməklə, həmin fəslə 15 ekoloji cinayət hüquq norması daxil edilmişdir:

Maddə 247. İşlərin yerinə yetirilməsi zamanı ətraf mühitin mühafizəsi (qorunması) qaydalarını pozma; Maddə 248. Ekoloji cəhətdən təhlükəli maddələrin və tullantıların dövriyyəsi qaydalarını pozma; Maddə 249. Baytarlıq qaydalarını və bitki xəstəliklərinə və ziyanvericilərinə qarşı müəyyən edilmiş mübarizə qaydalarını pozma; Maddə 250. Suyu (su mənbələrini) çirkləndirmə; Maddə 251. Atmosferi (havanı) çirkləndirmə; Maddə 252. Dəniz mühitini çirkləndirmə; Maddə 253. Sahilyanı şelf haqqında Azərbaycan Respublikasının qanunvericiliyini pozma; Maddə 254. Torpaqları korlama;Maddə 255. Yerin təkinin qorunması və istifadəsi qaydalarını pozma;Maddə 256. Balıq və digər su bioresurslarını qanunsuz tutma; Maddə 257. Balıq və digər su bioresurslarının qorunması qaydalarını pozma;Maddə 258. Qanunsuz ov etmə;Maddə 259. Qanunsuz ağac kəsmə;Maddə 260. Meşələri və digər yaşıllıqları məhv etmə və ya zədələmə; Maddə 261. Xüsusi mühafizə olunan təbiət ərazilərinin və təbiət obyektlərinin mühafizə rejimini pozma.

Onu da qeyd edək ki, yuxarıda qeyd etdiyimiz maddələrlə bağlı 31 may 2011-ci il tarixli 137-IVQD nömrəli Azərbaycan Respublikasının Qanunu ilə; 2 iyul 2001-ci il tarixli 172-IIQD nömrəli "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə; 16 may 2008-ci il tarixli 607-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ilə; 20 oktyabr 2009-cu il tarixli 896-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ilə; 6 mart 2015-ci il tarixli 1222-IVQD nömrəli Azərbaycan Respublikasının Qanunu ilə; 11 noyabr 2016-cı il tarixli 395-VQD nömrəli Azərbaycan Respublikasının Qanunu ilə; 31 may 2017-ci il tarixli 707-VQD nömrəli Azərbaycan Respublikasının Qanunu ilə; 30 oktyabr 2018-ci il tarixli 1300-VQD nömrəli Azərbaycan Respublikasının Qanunu ilə; 20 oktyabr 2017-ci il tarixli 816-VQD nömrəli Azərbaycan Respublikasının Qanunu ilə əlavə və dəyişikliklər olmuşdur [3].

Xüsusi olaraq qeyd edək ki, Cinayət Məcəlləsi ilə yanaşı müxtəlif, o cümlədən ekoloji cinayətlərə görə cinayət məsuliyyətini nəzərdə tutan bir çox qanunvericilik aktları da mövcuddur.

Ətraf mühitə vurulan zərər nəticə etibarilə bilavasitə insanın sağlamlığına vurulan zərərə bərabər tutulur. Yuxarıda da qeyd etdiyimiz kimi 8 iyun 1999-cu ildə "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Bu Qanun ətraf mühitin keyfiyyətinin yaxşılaşdırılması, təbii ehtiyatların səmərəli istifadəsi və bərpası, ətraf mühitin mühafizəsi sahəsində qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsi məqsədilə cəmiyyətlə təbiətin qarşılıqlı əlaqəsini tənzimləyir [11].

Eyni zamanda 4 avqust 1999-cu ildə "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədəAzərbaycan Respublikası Prezidenti Fərman imzalamışdır [12].

Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında12 iyun 2018-ci il 1175-VQ nömrəliAzərbaycan Respublikasinin Qanunu təsdiq edilmişdir. Eyni zamanda sözü gedən Qanununa Əlavə – yəni Ətraf mühitə təsirin qiymətləndirilməsi tələb olunan fəaliyyət növlərinin Siyahısı da təsdiq edilmişdir[13].

Həmçinin "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə12 iyun 2018-ci il 1176-VQD nömrəliAzərbaycan Respublikasinin Qanunu təsdiq edilmişdir [12].

Onu da qeyd edək ki, "Ətraf mühitin mühafizəsi haqqında" və "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə 24 aprel 2020-ci il 55-VIQD nömrəli Azərbaycan Respublikasinin Qanunu da təsdiq edilmişdir.

"Ekoloji təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının 8 iyun 1999-cu il tarixli Qanununda, "Əhalinin radiasiya təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının 30 dekabr 1997-ci il tarixli Qanununda, Azərbaycan Respublikasının "Yerin təki haqqında" 13 fevral 1998-ci il tarixli Qanununda, Azərbaycan Respublikasının 1997-ci il 30 dekabr tarixli Qanunu ilə təsdiq edilmiş Meşə Məcəlləsində, Azərbaycan Respublikasının 26 dekabr 1997-ci il tarixli Qanunu ilə təsdiq edilmiş Su Məcəlləsində və digət qanunvericili aktlarında nəzərdə tutulmuşdur [4, s. 384].

Azərbaycan Respublikası Prezidentinin2006-cı il 30 mart tarixli 1396 nömrəli Sərəncamı ilə"Ətraf mühitin mühafizəsi ilə bağlı Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq konvensiya və sazişlərdən irəli gələn məsələlər sahəsində əlavə tədbirlər" təsdiq edilmişdir. Belə ki, Azərbaycan Respublikası dövlət müstəqilliyini əldə etdikdən sonra ətraf mühitin mühafizəsi sahəsində bir çox beynəlxalq konvensiyalara və sazişlərə qoşulmuş, bununla bağlı üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsi istiqamətində zəruri addımlar atmışdır. Son illər bu sahədə beynəlxalq təşkilatlarla əlaqələr genişlənmiş, birgə layihələr hazırlanaraq həyata keçirilmiş, ekoloji tarazlığın təmin edilməsinə, ətraf mühitin çirkləndirilməsinin qarşısının alınmasına yönəldilmiş bir sıra dövlət proqramlarının icrasına başlanılmış, nadir və nəsli kəsilmək təhlükəsi qarşısında olan flora və faunanın qorunub saxlanılması məqsədilə milli parklar, dövlət təbiət qoruqları və dövlət təbiət yasaqlıqları yaradılmışdır. Bununla yanaşı, beynəlxalq konvensiyalardan və sazişlərdən irəli gələn öhdəliklərin tam həcmdə yerinə yetirilməsini təmin etmək üçün müvafiq dövlət orqanlarının səylərinin artırılması və bu sahədə işlərin daha da gücləndirilməsi zərurəti var [14].

Bu gün ekoloji problemlər qlobal beynəlxalq xarakter alır, çünki ətraf mühitin müxtəlif çirklənmə növləri tez-tez geniş transkontinental məkanlara yayılır.

Beynəlxalq ekoloji siyasətin uğurla həyata keçirilməsi baxımından elmi-texniki və iqtisadi əməkdaşlıq çox mühüm rol oynayır. Lakin bu sahədə beynəlxalq tədbirlərin səmərəliliyi daha çox hüquqi tənzimləmənin qüsursuzluğundan asılıdır ki, bu da öz növbəsində müəyyən dərəcədə qanunvericiliyin daxili konstruksiyasından asılıdır [8, s. 258].

Daxili qanunvericiliyin təkmilləşdirilməsi istiqamətlərinin düzgün seçilməsi üçün xarici ölkələrin qanunvericilik təcrübəsinin öyrənilməsi zəruridir.

Məsələn, Rusiya Federasiyasının Cinayət Məcəlləsində 13 ekoloji cinayət normaları olmuşdur. Həmin Cinayət Məcəlləsi çox xırda dəyişikliklərə 35 ildən artıq fəaliyyət göstərmişdir. Bu dövr ərzində əslində ölkədə ekoloji şəraitdə köklü surətdə dəyişilmiş ətraf mühiti mühafizə konsepsiya çox böyük dəyişikliklərə uğramış, yeni-yeni çirklənmə, tükənmə, dağıdılma mənbələri meydana gəlmişdir. Bu baxımdan 1 yanvar 1997-ci il tarixdən qüvvədə olan Rusiya Federasiyasının Cinayət Məcəlləsində Ekoloji cinayətlər ayrıca 26-cı fəsildə verilməklə, həmin fəslə 17 ekoloji cinayət hüquq norması daxil edilmişdir.

Digər qədim və orta əsr dövlətləri kimi, Rusiyada da təbii sərvətlərin mühafizəsi ilk növbədə mülkiyyət hüquqlarının, dövlətin iqtisadi, hərbi və vergi maraqlarının qorunması yolu ilə həyata keçirilirdi.

1845-ci il Cinayət və İslah Cəzaları Məcəlləsində konkret təbiət obyektlərini onlara qarşı cinayət törətməkdən qoruyan ayrıca maddələr var idi. Belə obyektlər bunlar idi: vəhşi heyvanlar, balıqlar, quşlar, hava, su, bitki örtüyü, xüsusən də meşələr, torpaq. Özbaşına balıq zavodlarının yaradılması, qanunsuz balıq ovu, vəzifəli şəxslər tərəfindən "qadağan olunmuş vaxtlarda və qadağan olunmuş yerlərdə ovun, heyvan və quşların ovlanmasının dayandırılması üçün tədbirlər görülməməsi", "qadağan olunmuş vaxtlarda ov ovunun ticarətinə yol verilməsi" cinayət hesab edilib. Bundan əlavə, ayrı-ayrı təbiət obyektlərinə qəsdlər haqqında maddələrin əksəriyyəti sosial yönümlülüyünə görə mülkiyyətçilərin (dövlətin, ayrı-ayrı şəxslərin) hüquqlarının müdafiəsini təmin edirdi.

1903-cü il Cinayət Məcəlləsi yuxarıda göstərilən cinayətlərin sosial yönümünün cinayət-hüquqi qiymətləndirilməsində diqqəti əhəmiyyətli dərəcədə dəyişdirmək yolunu tutdu. 1917-ci ilə qədər 1845-ci il Cinayət Məcəlləsi ekoloji cinayətlər baxımından fəaliyyətini davam etdirmişdir.Eyni zamanda, 1903-cü il Cinayət Məcəlləsi 1917-ci il tarixli CM-in əsasını qoymuşdur.

İnqilabdan sonrakı ilk illərdə yeni dövlət təbiətin mühafizəsi ilə bağlı ilk qanunvericilik aktlarını hazırlayır. Belə ki, 1918-ci il mayın 27-də meşələrin mühafizəsi haqqında fərman imzalandı və orada onların müstəsna su mühafizəsi, torpağın mühafizəsi, iqtisadi və mədəni əhəmiyyəti qeyd edilirdi. 1927-ci il yanvarın 1-də 1926-cı il Cinayət Məcəlləsi qüvvəyə minir ki, onun nəşri respublika cinayət qanunvericiliyinin SSRİ cinayət qanunvericiliyinə uyğunlaşdırılması zərurətindən irəli gəlir. Odur ki, o, 1922-ci il məcəlləsindən əsaslı şəkildə fərqlənmirdi. Cinayət Məcəlləsinin bu maddələri dəfələrlə dəyişdirilib və əlavə edilib.

Sonrakı RSFSR-in 1960-cı il Cinayət Məcəlləsində, təbiətə qəsdlərə görə məsuliyyət haqqında maddələr müxtəlif fəsillərdə idi. 1960-cı il Cinayət Məcəlləsinin müxtəlif fəsillərində ətraf mühitə qəsdlərə görə məsuliyyətə dair maddələrin yeri göstərdi ki, bu cinayətlərin obyektləri müxtəlif cür müəyyən edilir. Bununla da cinayət hüququnda ekoloji cinayətlərin vahid sisteminin yaradılmasının qarşısı alınıb. Lakin cinayət hüququ doktrinasında belə bir sistem artıq 1980-ci illərin sonu və 1990-cı illərin əvvəllərində formalaşmışdı ki, bu da 1994-cü və 1995-ci illərin Cinayət Məcəlləsinin layihələrində öz əksini tapmışdır. 1995-ci il layihəsində əksini tapmış ekoloji cinayətlər sistemi 1996-cı il məcəlləsinə 26-cı fəsil kimi "Ekoloji cinayətlər" daxil edilmişdir.

Ekoloji cinayətlərə görə məsuliyyətə dair xüsusi fəslin tətbiqi Rusiya Federasiyasının yeni Cinayət Məcəlləsinin bir xüsusiyyətidir. Keçmiş Cinayət Məcəlləsində təbiətin mühafizəsi ilə bağlı ondan çox norma var idi, lakin onlar müxtəlif fəsillərdə öz əksini tapırdı. Yeni RF CM-də 26-cı fəsildə "Ekoloji cinayətlər" (246-262-ci maddələr daxil olmaqla) 17 maddədən ibarətdir [10].

Ekoloji cinayət cinayət fəaliyyətinin daim inkişaf edən formasıdır. Bu, müasir cəmiyyətimizin əsas maraqlarına qəsd edilməsinin ağır forması hesab edilməlidir.

Biz çalışmalıyıq ki, ekoloji cinayətin qarşısının alınması yolları tapılsın və qanunu pozan şəxs cəzalandırılsın. Avropa İttifaqı bir çox cəhətdən vahid qanunvericiliyə malik vahid qurumdur. Ekoloji cinayət heç bir sərhəd tanımır. Buna görə də, ekoloji cinayətlərə görə sanksiyaların normalarının İttifaq daxilində oxşar və ya ən azı müqayisə edilə bilən olması və ölkədən asılı olaraq əsaslı şəkildə fərqlənməməsi məntiqli olardı. Bu, ədalət və ədalətə ehtiyacdır: oxşar hərəkətlərə görə bütün Avropa vətəndaşları üçün cəza bərabər olmalıdır. Bu, ekoloji qanunvericiliyin səmərəliliyinin və ətraf mühitimizin səmərəli mühafizəsinin əsasını təşkil edir [9, s. 33].

Beləliklə, müasir dövrdə beynəlxalq terrorizmin və dövlətlərarası münaqişələr zəminində meydana gəlmiş terrorizmin, ekoloji cinayətlərin dağıdıcı nəticələrini, narkobiznesin miqyasının genişlənməsinin ictimai təhlükəliliyinin artmasını nəzərə alaraq, qeyd edək ki, beynəlxalq

terrorizmə, narkotik vasitələrin və psixotropik maddələrin qanunsuz dövriyyəsinə, ətraf mühitin məhvinə yönəlmiş cinyətlərə ciddi müqavimət göstərilməsi müasir cinayət siyasətinin ən mühüm istiqamətlərindən biri olmalıdır.

**Biblioqrafiya**

1. Azərbaycan Respublikasının Konstitusiyası. - Bakı:Hüquq Yayın Evi, 2019. - 116 s.
2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. - Bakı: Digesta, 2018. - 472 s.
3. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. - Bakı: Hüquq Yayın Evi, 2020. -772 s.
4. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin kommentariyası. II Hissə / Hüquq elmləri doktoru, professor F.Y. Səməndərovun redaktəsi ilə. - Bakı, 2018. - 800 s.
5. Cinayət Qanunları Külliyyatı (1920-2000). - Bakı: Hüquq Yayın Evi, 2014 - 1184 s.
6. Qurbanov R.A. Cinayətkarlığa qarşı mübarizənin bəzi məsələləri. - Bakı: Nurlan, 2006. - 192 s.
7. Hüseynov R.İ. Ekoloji cinayətlər: onların aradan qaldırılmasının hüquqi-sosial və fəlsəfi əsasları. - Bakı: Adiloğlu, 2001. - 119 s.
8. Тангиев Б.Б. Научный эколого-криминологический комплекс (НЭКК) по обеспечению экологической безопасности и противодействию экопреступности. - Санкт-Петербург: Юридический центр Пресс, 2010 - 630 с.
9. Экологическая преступность в Европе / Ответственный редактор: Дубовик О. Л., Под общей редакцией: Комт Ф., Кремер Л. - М.: Городец, 2010. – 352 с.
10. Экологическая преступность и ... [Elektron resurs]. URL: https://www.monographies. ru (müraciət tarixi: 24.02.2022)
11. 678-IQ - Ətraf mühitin mühafizəsi haqqında - e-qanun [Elektron resurs]. URL: http://www.e-qanun.az (müraciət tarixi: 03.03.2022)
12. "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikası [Elektron resurs]. URL: http://www.e-qanun.az › fram... (müraciət tarixi: 03.03.2022)
13. 1175-VQ - Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında - E ... http://www.e-qanun.az (müraciət tarixi: 03.03.2022)
14. Ətraf mühitin mühafizəsi ilə bağlı Azərbaycan Respublikasının ... [Elektron resurs]. URL: http://www.e-qanun.az › fram... (müraciət tarixi: 03.03.2022)

Гусейнова С.У.♦

DOI: 10.25108/2304-1730-1749.iolr.2022.66.51-62
УДК: 34: 343.2/.7

## Экологические преступления в национальном уголовном праве: история развития и современное состояние

**Аннотация**: В исследовании анализируются нормы уголовного права, определяющие ответственность за экологические преступления, и производится экскурс в историю становления законодательной системы. Так, были тщательно исследованы 4-я глава «Хозяйственные преступления» Уголовного кодекса Азербайджана 1922 г., 5-я глава «Экономические преступления» Уголовного кодекса Азербайджана 1927 г., глава 6 «Экономические преступления» УК 1960 г., а также глава 6 Уголовного кодекса Азербайджанской ССР «Преступления в экономической сфере» и, наконец, глава 28 «Экологические преступления» Уголовного кодекса Азербайджанской Республики действующего с 1 сентября 2000 года.

В ходе исследования было установлено, что по сравнению с предыдущим уголовным законодательством Уголовный кодекс Азербайджанской Республики, принятый 1 сентября 2000 года, определяет составы преступных проявлений, связанных с экологическими преступлениями. Однако после принятия нового УК положения об ответственности за деяния, связанные с экологическими преступлениями, были либо дополнительно усовершенствованы, либо подверглись ряду дополнений и изменений. Все это свидетельствует о том, что уголовное право прошло долгий и сложный путь в борьбе с такими опасными деяниями, как экологические преступления. С учетом исторического опыта уголовное законодательство Азербайджанской Республики установило более совершенные нормы, определяющие ответственность за экологические преступления.

В связи с вступлением в силу нового Уголовного кодекса новейшее развитие национального уголовного законодательства Азербайджана приобрело современные и более эффективные уголовно-правовые инструменты и механизмы в борьбе с экологическими преступлениями.

**Ключевые слова:** экологические преступления; система законодательства; охрана окружающей среды; законодательство; нарушение режима безопасности; развитие уголовного законодательства; национальное уголовное право; правила экологической безопасности.

### Библиография

1. Конституция Азербайджанской Республики. – Баку: Hüquq Yayın Evi, 2019. - 116 с. (на азерб.яз.).
2. Уголовный Кодекс Азербайджанской Республики. – Баку: Дигеста, 2018. - 472 с. (на азерб. яз.).
3. Уголовный Кодекс Азербайджанской Республики. – Баку: Hüquq Yayın Evi, 2020. -772

♦ **Гусейнова Севиндж Усуб кызы** – доктор философии права, старший научный сотрудник отдела «Уголовное право и уголовный процесс» Института права и прав человека НАНА (Азербайджан). E-mail: sevhuseyn@yahoo.com

с. (на азерб. яз.).

4. Комментарий к Уголовному кодексу Азербайджанской Республики. Ч. 2. под ред. д.ю.н. проф. Ф. Самандарова. Баку: Нурлан, 2006, 800 с. (на азерб. яз.).

5. Сборник уголовных законов (1920-2000). - Баку: Huquq Yayın Evi, 2014 - 1184 с. (на азерб. яз.).

6. Гурбанов Р.А. Некоторые вопросы борьбы с преступностью. - Баку: Нурлан, 2006. - 192 с. (на азерб. яз.).

7. Гусейнов Р.И. Экологические преступления: социально-правовые и философские оснвы их устранеия. - Баку: Адильоглы, 2001. - 119 с. (на азерб. яз.).

8. Тангиев Б.Б. Научный эколого-криминологический комплекс (НЭКК) по обеспечению экологической безопасности и противодействию экопреступности. - Санкт-Петербург: Юридический центр Пресс, 2010 - 630 с.

9. Экологическая преступность в Европе / Отв. ред. О.Л. Дубовик. Под общей ред. Комт Ф., Кремер Л. - М.: Городец, 2010. – 352 с.

10. Экологическая преступность и ... [Электронный ресурс]. Режим доступа: https://www.monographies.ru (дата обращения: 24.02.2022).

11.678-IQ – Об охране окружающей среды - e-qanun [Электронный ресурс]. Режим доступа: http://www.e-qanun.az (дата обращения: 03.03.2022)

12. Закон Азербайджанской Республики “Об охране окружающей среды” [Электронный ресурс]. Режим доступа: http://www.e-qanun.az › fram... (дата обращения: 03.03.2022) (на азерб.яз.).

13. 1175-VQ – Об оценке воздействия на окружающую среду… [Электронный ресурс]. Режим доступа: http://www.e-qanun.az (дата обращения: 03.03.2022) (на азерб.яз.).

14. Закон Азербайджанской Республики «В связи с охраной окружающей среды» [Электронный ресурс]. Режим доступа: http://www.e-qanun.az › fram... (дата обращения: 03.03.2022)